AZƏRBAYCAN RESPUBLİKASI

VERGİLƏR NAZİRLİYİ

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# Seçilmiş ölkələrdə Yol Vergisi Təcrübələri

## ƏLAVƏ 1:Yol Vergisinin Yanacaq Qiymətlərinə Daxil Edilməsi Üzrə Beynəlxalq Təcrübə Haqqında

2014

**2014**

# MÜNDƏRİCAT

GİRİŞ........................................................................................................ 2

Çin Xalq Respublikası..........................................................................................3

Sinqapur.............................................................................................................4

Böyük Britaniya ..................................................................................................5

İspaniya Krallığı..................................................................................................5

Fransa Respublikası.............................................................................................6

ABŞ.....................................................................................................................7

Gürcüstan Respublikası........................................................................................9

Nəticə...............................................................................................................10

# *Giriş*

Yol vergisi anlayışının tarixi orta əsrlər dövrünə təsadüf edir. Orta əsrlərdə istər gəzinti, istər at sürmək və istərsə də araba ilə getməkdən asılı olmayaraq yolda olan hər kəsdən vergi alınırdı. 1637-ci ildən nəqliyyat vasitələrinin vergiyə cəlb edilməsinə başlanmışdır. İlk dəfə Birləşmiş Krallıqda qoşqu arabalarına lisenziya alınması ilə bağlı qanun qəbul edildi. Daha sonralar buxar mühərriklərinin ixtirası mexaniki nəqliyyat vasitələrinin lisenziyalaşdırılması istiqamətində ilk təkan oldu. Bu da öz növbəsində lisenziyalarla bağlı bir sıra aktların və qanunların qəbul olunmasına və yol vergisi sahəsində dünya ölkələrinin qanunvericiliklərinin formalaşmasına gətirib çıxartdı.

Dünya ölkələrinin təcrübələrindən məlum olur ki, müxtəlif ölkələrdə yol vergisi müxtəlif məqsədlər üçün istifadə olunur. Xüsusilə, avropa ölkələrində yol vergisi yeni yolların çəkilməsi, təmiri, bərpası, hərəkət sıxlığının azaldılması ilə yanaşı ətraf mühitin mühafizəsi məqsədilə tətbiq edilir. Asiya ölkələrində isə ətraf mühitin mühafizəsi məqsədilə yol vergisinin tətbiqi tendensiyası digər yuxarıda sadalanan hallardan daha az müşahidə olunur. Ümumilikdə, dünya ölkələrinin təcrübələrinin araşdırılması zamanı yol vergisi anlayışının müxtəlif adlar altında tətbiq edildiyi müşahidə olunmuşdur. Bəzi ölkələrdə yol vergisi mühərrikli nəqliyyat vasitələri vergisi, bəzilərində əmlak vergisi, nəqliyyat vergisi, nəqliyyat vasitələrinin aksiz vergisi, nəqliyyat vasitələrinin qeydiyyatı vergisi, magistral yoldan istifadə vergisi və s. adlarda tətbiq edilməkdədir. Yol vergisi bəzi ölkələrdə vergi orqanları, bəzilərində isə bələdiyyələr, nəqliyyat vasitələrinin qeydiyyatını aparan dövlət qurumları tərəfindən toplanır.

# Çin Xalq Respublikası

"Çin Xalq Respublikasının avtomobil və gəmi vergisi qanunu" 2012-ci il yanvar ayının 1-dən qüvvəyə minmişdir. Bu qanunun 1-ci maddəsinə əsasən avtomobil və gəmi sahibləri avtomobil və gəmi vergisinin ödəyiciləridirlər.
Vergi ödəyicisinin vergi öhdəliyi avtomobil və gəmiyə sahib olduğu aydan yaranır. Avtomobil və gəmilərə görə vergi bəyannamələrinin göndərilməsi və vergilərin ödənilməsi illik əsasda həyata keçirilir.

Minik avtomobillərinə hesablanan vergi məbləği mühərrik həcmindən asılı olaraq dəyişir:

| | |
|---|---|
| Mühərrik həcmi 1litr-dək olduqda(oturacaq yerlərinin sayı 9-dan çox olmamaqla) | 7.91AZN-dən 45.49AZN-ə kimi |
| 1litrdən- 1.6 litrədək | 37.91AZN-dən 68.25AZN-ə kimi |
| 1.6 litrdən-2 litrədək | 45.49AZN-dən 83.42AZN-ə kimi |
| 2 litrdən -2.5 litrədək | 83.42AZN-dən 151.64AZN-ə kimi |
| 2.5litrdən -3litrədək | 151.64AZN-dən 303.278 AZN-ə kimi |
| 3litrdən -4litrədək | 303.278 AZN-dən 454.920 AZN-ə kimi |
| 4litrdən yuxarı | 454.920AZN-dən 682.380AZN-ə kimi |

Avtomobil və gəmi vergisi qanununun 3-cü maddəsinə əsasən aşağıdakılar avtomobil və gəmi vergisindən azaddırlar:

1) Balıqçılıq gəmiləri;
2) Hərbi qüvvələr tərəfindən istifadə olunan avtomobil və gəmilər;
3) Polis avtomobilləri və gəmiləri;
4) Çində yerləşən xarici səfirliklərin və konsulluqların, beynəlxalq təşkilatların nümayəndəliklərinin avtomobilləri və gəmiləri.

Avtomobil və gəmi vergisi yığımının inzibatçılığı bu qanunla və “Vergi yığımının inzibatçılığı haqqında Çin Xalq Respublikasının qanunu” ilə tənzimlənir

## Sinqapur

Sinqapurda yol vergisi “Yol nəqliyyatı aktı”nın 276-cı fəsli ilə tənzimlənir. Yol nəqliyyatı aktının müddəalarına əsasən aşağıdakılar vergitutma obyektidir:

- Hər bir avtomobilin ilkin qeydiyyatı
- Yoldan istifadə edən hər bir avtomobil

Avtomobil sahibi lisenziya aldıqda yol vergisini ödəyir. Avtomobilin ilkin qeydiyyatı üçün verginin məbləği nazirin əmrinə əsasən müxtəlif dövrlərdə fərqli məbləğlərlə ödənilə bilər. Hətta bu məbləğ avtomobillərin növündən və istifadə təyinatından asılı olaraq dəyişə bilər. Yoldan istifadə edən hər bir avtomobil sahibi yol vergisini 6 aylıq və ya 1 illik formada ödəyə bilər. Yol vergisi mühərrik həcmindən, yanacağın növündən asılı olaraq dəyişir. Mühərrik həcmi 600 $sm^3$ -ə bərabər və ya ondan az olan avtomobillər üçün illik yol vergisi 246 AZN təşkil edir. Mühərrik həcmi 3000$sm^3$-dən az olan avtomobillər üçün isə illik yol vergisi 1870AZN-ə bərabərdir. Avtomobilin buraxılış ili də yol vergisinin məbləğinə təsir edir. Belə ki, avtomobilin buraxılış ili 10 ildən artıq olduqda 10%, 14 ildən artıq olduqda isə yol vergisinin 50%-i miqdarında əlavə ödəniş edilməlidir.

***Yol nəqliyyatı aktına əsasən aşağıdakı nəqliyyat vasitələri yol vergisindən azaddırlar:***

- Yanğınsöndürən maşınlar;
- Təcili tibbi yardım maşınları;
- Yalnız yanğınsöndürmə xidməti üçün istifadə olunan nəqliyyat vasitələri;
- Yol çəkən maşınlar;
- Yalnız sənaye, mədən və kənd təsərrüfatı üçün istifadə olunan və dövlət xərcləri hesabına təmir olunan yollarda istifadəsi nəzərdə tutulmayan nəqliyyat vasitələri;
- Əlil arabaları;

- Velosipedlər.

## Böyük Britaniya

Böyük Britaniyada yanacaq vergisi və nəqliyyat vasitələrinin aksiz vergisi yol istifadəçilərini vergiyə cəlb etmək üçün əsas vasitə hesab olunur. Hökumət yolların bərpası, təmiri və yeni yolların salınması məqsədi ilə yuxarıda adı çəkilən vergilərdən istifadə edir.

Nəqliyyat vasitələrinin yol vergisi illik olaraq nəqliyyat vasitələrinin onların ağırlığına, buraxdığı karbon-dioksidin həcminə, ilinə və mühərrikin həcminə görə hesablanır və ödənilir. Elektrik nəqliyyat vasitələri və əlillər üçün nəzərdə tutulmuş nəqliyyat vasitələri vergitutma obyekti deyil. Böyük Britaniyada nəqliyyat vasitəsindən ayrılan karbon-dioksidin həcmi 100g/km olan nəqliyyat vasitələri illik heç bir vergi ödəmədiyi halda, karbon-dioksidin həcmi 255 g/km olan nəqliyyat vasitəsinin illik vergisi 490 funta bərabərdir. Eyni zamanda, 2001-ci il mart ayının 1-dən qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinə (mühərrikin həcmi 1.549cc – yə qədər olan) görə illik 140 funt ödənilir. Bununla yanaşı, mühərrikinin həcmi 1,549 və daha çox olan nəqliyyat vasitələri illik 225 funt ödəyirlər.

## İspaniya

İspaniyada yol vergisi mühərrikli nəqliyyat vasitələri vergisi adı altında tətbiq edilir. Mühərrikli nəqliyyat vasitələrinə iki növ vergi tətbiq edilir:

- Qeydiyyat vergisi (impuesto de matriculacion) nəqliyyat vasitəsinin alışı zamanı alış qiymətinə tətbiq edilir. Bu milli vergidir və dərəcəsi nəqliyyat vasitəsinin buraxdığı karbon-dioksiddən asılı olaraq 0 faizlə 14.75 faiz arasında dəyişir. Bəzi hallarda regionlarda sabit dərəcə də tətbiq edilir.

- Mexaniki nəqliyyat vasitələrinin dövriyyəsi vergisi illik vergidir. Bu vergi bələdiyyə vergisi hesab edilir və dərəcəsi regionlardan asılı olaraq dəyişir. Vergi nəqliyyat vasitəsinin at gücünə əsasən hesablanır. Madrid və Barselonada at gücünə görə hesablama 22 avrodan 224 avroya qədər dəyişir. Diplomatik nəqliyyat vasitələri, bəzi dövlət xidmətinin nəqliyyat vasitələri və 25 ildən çox qeydiyyatı olan nəqliyyat vasitələri bu vergi növünü ödəməkdən azaddır. Bu növ verginin dərəcəsi İspan hökumətinin müəyyənləşdirdiyi maksimum və minimum hədlər daxilində yerli bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Daha çox at gücü olan nəqliyyat vasitəsinə görə daha çox vergi ödənilir. Elektrik və hibrid nəqliyyat vasitələrinə malik olan şəxslərin ödədikləri vergiyə 75 faizə qədər güzəşt nəzərdə tutulur. Eyni zamanda, "təbiət dostu" qaydalarına uyğunlaşdırılmış nəqliyyat vasitələrinə müəyyən vergi güzəştləri nəzərdə tutulur.

## Fransa

Fransada yanacaq vergisi, mühərrikli nəqliyyat vergisi və digər növ vergilər yol istifadəçilərini vergiyə cəlb etmək üçün əsas vasitə hesab olunur. Bu vergilər yolların təmiri, bərpası, ətraf mühitin mühafizəsi məqsədi ilə tətbiq edilir. Fransada nəqliyyat vasitələri vergisi bütün şirkətlərə tətbiq edilir. Vergi dərəcələrini müəyyənləşdirərkən avtomobilin at gücü, ili, buraxdığı karbon-dioksidin həcmi əsas götürülür. Belə ki, 1 yanvar 2006-cı ildən əvvəl alınmış avtomobillər mühərriklərinin at güclərinə əsasən aşağıdakı qaydada vergiyə cəlb edilirlər:

| ***Növ*** | ***Vergi (avro)*** |
|---|---|
| Mühərrikin at gücü 4 və daha az olanlar | 750 |
| Mühərrikin at gücü 5 və 7 olanlar | 1400 |

| | |
|---|---|
| Mühərrikin at gücü 8 və 11 olanlar | 3000 |
| Mühərrikin at gücü 12 və 16 olanlar | 3600 |
| Mühərrikin at gücü 17 və daha yuxarı olanlar | 4500 |

1 yanvar 2006-cı ildə sonra alınmış avtomobillərə vergi hesablanarkən onların buraxdığı karbon-dioksidin həcmi əsas götürülür:

| ***Karbon-dioksidin səviyyəsi(hər kilometrə düşən qrama görə)*** | ***Vergi (hər qrama görə)*** |
|---|---|
| 100-dən az | 2 |
| 100-120 | 4 |
| 120-140 | 5 |
| 140-160 | 10 |
| 160-200 | 15 |
| 200-250 | 17 |
| 250-dən yuxarı | 19 |

Yoldan istifadə vergisi- Bu növ vergi avtomobil operatorlarına tətbiq edilir. Bu növ vergi istifadəçilər tərəfindən qət edilən məsafə sayına əsasən hesablanır. Vergi dərəcəsi hər 1000 km-ə 6.86 avro təşkil edir.

## ABŞ

ABŞ-da yol vergisi müxtəlif adlarda tətbiq edilir. Qeydiyyat haqqı bunun əsas tərkib hissəsidir. Mühərrikli nəqliyyat vasitələrinin qeydiyyat qaydaları və dərəcələri ştatdan-ştata dəyişir. Qeydiyyat haqqı sabit və ya avtomobilin ağırlığından, ilindən və ya dəyərindən asılı olaraq dəyişə bilər. Qeydiyyat haqqı

illik ödənilir. Bu haqqı ödəməyən şəxslərin avtomobilləri cərimə meydançalarına aparıla və ya onlara qarşı hər hansı sanksiya tətbiq edilə bilər. Əgər şəxs bir ştatdan digər ştata daimi əsasda keçirsə, o nəqliyyat vasitəsini 10-60 gün içərisində qeydiyyatdan keçirməlidir, o cümlədən qeyri-rezidentlər müəyyənləşdirilmiş vaxtdan artıq qalarsa (30-90 gün) onlarda nəqliyyat vasitələrini qeydiyyatdan keçirməlidirlər. Əlavə olaraq, bəzi ştatlarda mühərrikli nəqliyyat vasitəsi vergisi, mühərrikli nəqliyyat vasitəsi satış vergisi, mühərrikli nəqliyyat vasitəsi istifadə vergisi də tətbiq edilməkdədir. Məsələn, Texas ştatında mühərrikli nəqliyyat vasitəsi vergisinin dərəcəsi 6.25 faizdir. Bu vergi növü nəqliyyat vasitəsinin Texasda alındığı vaxt və ya Texasa birinci dəfə gətirildiyi vaxt hesablanır.Eyni zamanda, nəqliyyat vasitəsinin satış vergisi Texasda avtomobil satışı ilə məşğul olan şəxslərə tətbiq edilir. Ancaq bu vergi növünü ödəmək məsuliyyəti alıcıların üzərinə qoyulur və satıcı yalnız bunu tətbiq edir. Texasda magistral yollardan istifadəyə görə də mühərrikli nəqliyyat vasitəsindən istifadə vergisi tətbiq edilir. Əgər avtomobil Texas yollarında və ya magistrallarda sürülürsə artıq o vergitutma obyekti hesab edilir. Texasdan kənarda alınmış və Texasa yeni rezidentlər tərəfində gətirilmiş hər nəqliyyat vasitəsinə görə 90 ABŞ dolları rüsum tələb olunur. Bu rüsum yeni rezident tərəfindən nəqliyyat vasitəsini qeydiyyatdan keçirərkən ödənilir. Kaliforniya və Yeni Hempşir ştatlarında qeydiyyat vergisi nəqliyyat vasitəsinin dəyərinə əsasən hesablanır. Belə ki, bahalı avtomobillərin qeydiyyat vergisi daha çox, dəyəri aşağı olan avtomobillərin qeydiyyat vergisi daha az olur.

ABŞ-da nəqliyyat vasitələrinin ağırlığından asılı olaraq, Federal Magistral Yol Vergisi də tətbiq edilir. Belə ki, ağırlığı 2500 kq və ondan ağır olan nəqliyyat vasitələri bu verginin ödəyicisidir. Bu vergi növü vergi ilində 8000 km və ya ondan az magistral yoldan istifadə edən nəqliyyat vasitələrinə tətbiq edilmir. Bununla yanaşı, kənd təsərrüffatı nəqliyyat vasitələri isə 12000 km və ondan az magistral yoldan istifadə etdikdə bu verginin ödəyicisi hesab edilmirlər.

# Gürcüstan

Gürcüstan Vergi Məcəlləsinə əsasən nəqliyyat vasitələrindən tutulan vergi əmlak vergisi adlanır və bu vergi növü yerli vergi hesab edilir. Minik avtomobillərindən əmlak vergisi illik olaraq, onların texniki yoxlanışı və ya yenidən qeydiyyatı zamanı tutulur. Minik avtomobillərindən vergi onların mühərriklərinin həcminə, hər bir avtomobil növünün ilinə görə tutulur:

| № | Mühərriklərinin həcminə görə minik avtomobili | Nəqliyyat vasitəsinin ili | Vergi məbləği (yuvarlaqlaşdırılmış məbləğ AZN-lə) |
|---|---|---|---|
| **1.** | 2000 $sm^3$ - ə qədər | 1 ilə qədər | 22 |
| | | 1-3 il arasında | 17 |
| | | 3-4 il arasında | 13 |
| | | 4-5 il arasında | 9 |
| | | 5-6 il | 5 |
| | | 6- ildən çox | 2 |
| **2.** | 2000 $sm^3$ - 3000 $sm^3$ | 1-ilə qədər | 67 |
| | | 1-3 il arasında | 58 |
| | | 3-4 il arasında | 49 |
| | | 4-5 il arasında | 36 |
| | | 5-6 il | 11 |
| | | 6- ildən çox | 2 |
| **3.** | 3000 $sm^3$ -dən çox | 1-ilə qədər | 134 |
| | | 1-3 il arasında | 112 |
| | | 3-4 il arasında | 89 |
| | | 4-5 il arasında | 45 |
| | | 5-6 il | 22 |

| | | | |
|---|---|---|---|
| | | 6- ildən çox | 2 |

# Nəticə

Aparılan araşdırma nəticəsində məlum olur ki, yol vergisi bir çox ölkələrdə toplanır və müxtəlif məqsədlər üçün sərf olunur. Avropa ölkələrində yol vergisi yeni yolların çəkilməsi, təmiri, bərpası, hərəkət sıxlığının azaldılması ilə yanaşı nəqliyyat vasitələrinin ətraf mühitə zərərli təsirini azaltmaq məqsədi ilə tətbiq edilir. Asiya ölkələrində isə ətraf mühitin mühafizəsi məqsədilə yol vergisinin tətbiqi tendensiyası digər yuxarıda sadalanan hallardan daha az müşahidə olunur. Burada məqsəd büdcə gəlirlərinin artırılmasıdır. Ümumilikdə, dünya ölkələrinin təcrübələrinin araşdırılması zamanı yol vergisi anlayışının müxtəlif adlar altında tətbiq edildiyi müşahidə olunmuşdur. Bəzi ölkələrdə yol vergisi mühərrikli nəqliyyat vasitələri vergisi, bəzilərində əmlak vergisi, nəqliyyat vergisi, nəqliyyat vasitələrinin aksiz vergisi, nəqliyyat vasitələrinin qeydiyyatı vergisi, magistral yoldan istifadə vergisi və s. adlarda tətbiq edilməkdədir. Yol vergisi bəzi ölkələrdə vergi orqanları, bəzilərində isə bələdiyyələr, nəqliyyat vasitələrinin qeydiyyatını aparan dövlət qurumları tərəfindən toplanır.

Beləliklə, **Çin Xalq Respublikasında** yol vergisi minik avtomobillərinin mühərrikinin həcmindən asılı olaraq 7 - 682 AZN arasında dəyişir.

**Sinqapurda** yoldan istifadə edən hər bir avtomobil sahibi yol vergisini 6 aylıq və ya 1 illik formada ödəyə bilər. Yol vergisi mühərrik həcmindən, yanacağın növündən asılı olaraq dəyişir. Mühərrik həcmi 600 $sm^3$ -ə bərabər və ya ondan az olan avtomobillər üçün illik yol vergisi 246 AZN təşkil edir. Mühərrik həcmi 3000$sm^3$-dən az olan avtomobillər üçün isə illik yol vergisi 1870AZN-ə bərabərdir.

**Böyük Britaniyada** nəqliyyat vasitəsindən ayrılan karbon-dioksidin həcmi 100g/km olan nəqliyyat vasitələri illik heç bir vergi ödəmədiyi halda, karbon-

dioksidin həcmi 255 g/km olan nəqliyyat vasitəsinin illik vergisi 490 funta bərabərdir.

**İspaniyada** yol vergisi iki növə ayrılır: Qeydiyyat vergisi və Mexaniki nəqliyyat vasitələrinin dövriyyəsi vergisi. Qeydiyyat vergisi milli vergidir və dərəcəsi nəqliyyat vasitəsinin buraxdığı karbon-dioksiddən asılı olaraq 0 faizlə 14.75 faiz arasında dəyişir. Mexaniki nəqliyyat vasitələrinin dövriyyəsi vergisi bələdiyyə vergisi hesab edilir və dərəcəsi regionlardan asılı olaraq dəyişir. Vergi nəqliyyat vasitəsinin at gücünə əsasən hesablanır.

**Fransada** 2006-cı ildən əvvəl alınmış avtomobillərə mühərriklərinin at güclərinə əsasən 750 - 4500 avro arasında yol vergisi tətbiq edilir. Eyni zamanda 2006-cı ildən sonra alınmış avtomobillərə vergi hesablanarkən onların buraxdığı karbon-dioksidin həcmi əsas götürülür və illik 2 avrodan 9 avroyadək vergi məbləği hesablanır.

**ABŞ**-da mühərrikli nəqliyyat vasitəsi vergisi, mühərrikli nəqliyyat vasitəsi satış vergisi, mühərrikli nəqliyyat, federal magistral yol vergisi, qeydiyyat vergisi və nəqliyyat vasitəsindən istifadə vergisi tətbiq edilməkdədir. Hər vergi üzrə dərəcələr ştatlara görə fərqlənir.

**Gürcüstanda** yol vergisi əmlak vergisinin növüdür. Minik avtomobilinin mühərrikinin həcminə və ilinə görə hesablanır.

**ƏLAVƏ 1**

Yol Vergisinin Yanacaq Qiymətlərinə Daxil Edilməsi Üzrə Beynəlxalq Təcrübə Haqqında

Dünya ölkələrinin hamısında yol vergisi mövcuddur. Həmin verginin tutulmasında əsasən mühərrikin həcmi, atmosferə atılan karbon-dioksidin miqdarı, avtomobilin qiyməti və.s kimi meyarlardan istifadə edilir.

Bu gün yol vergisinin yığılmasında fərqli tendensiyalar da mövcuddur. Yol vergisi yanacaq qiymətinə daxil olunmaqla yığıla bilir. Toplanan vergilər tətbiq olunan bütün ölkələrdə demək olar ki, yolların bərpasına və qorunub saxlanmasına sərf olunur. Ekspertlərin fikrincə "daha çox avtomobil sürərək yoldan istifadə edən, daha çox vergi ödəsin" prinsipi ən ədalətli yanaşmadır. Beynəlxalq aləmə nəzər saldıqda bu istiqamətdə təcrübələrin mövcud olduğunu görmək olar. Belə ki, **ABŞ**-da hər litr yanacaqdan 12 sent vergi payına düşür. Həmin məbləğdən 2,5 sent federal yol fonduna, qalan hissə isə ştatın büdcəsinə mədaxil olunur. **Çin Xalq Respublikasında** yanacaq qiymətinin 20%-i yol vergisi olaraq tutulur və həmin məbləğ yol infrastruktutunun saxlanılmasına sərf olunur. **Fransada** sürücülərin aldıqları hər litr yanacaqda 0,87 ABŞ dolları, **Almaniyada** 0,71 ABŞ dolları, **Böyük Britaniyada** 0,89 ABŞ dolları vergi olaraq ödənilir. **Norveçdə** də avtomobil sahibləri tərəfindən ödənilən yol vergiləri əsasən yeni yolların çəkilişi və bərpasına yönəldilir. Avtomobillər tərəfindən istehlak edilən yanacağın hər litrinə görə 0.77 ABŞ Dolları (4.73 Norveç Kronu), dizelə görə 0.60 ABŞ Dolları (3.73 Norveç Kronu), biodizelə görə isə 0.30 ABŞ Dolları (1.84 Norveç Kronu) yol vergisi tətbiq edilir.Yanacaq qiymətinə daxil edilən yol vergisi aşağıdakı üstünlükləri təmin edir:

- Sosial ədalət prinsipi təmin olunur, daha çox maşın sürən daha çox vergi ödəyir;
- İllik vergini bir dəfəyə deyil il ərzində hissələrə bölərək ödəmə imkanı yaranır;
- Verginin tam yığılması təmin olunur;
- Yığılan vəsaitlərin yol hərəkətinin intensiv olduğu ərazilərə sərf olunma imkanı yaranır;
- Yol vergisinin yığılması üçün ayrılan məmur resurslarının qənaət edilir;
- Mühərriki kiçik həcmli olan avtomobillərin alışının stimullaşdırılması təmin olunur;

Qeyd olunan ölkələrdə araşdırma nəticəsində yol vergisinin yanacağın qiymətinə daxil edildiyi müəyyən edildi. Lakin, həmin ölkələrin hamısında yollardan istifadəyə görə ödənilən verginin yanacağın qiymətinə daxil edilməsi metodu ilə yanaşı, digər meyarlardan istifadə etməklə vergilərin cəlb olunması da (qeydiyyat vergisi, alış vergisi, yoldan istifdə vergisi, nəqliyyat vasitələrindən atmosferə atılan karbon dioksidin həcminə görə tutulan vergi, avtomobilin mühərrikinin həcminə görə və.s.) tətbiq edilməkdədir. Yəni, həmin ölkələrdə yanacağın qiymətinə yoldan istifadəyə görə daxil edilən vergi ümumi yığılan yol vergisini təşkil edən komponentlərdən biridir.